

Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 05-06 (581-582) | 15 mart 2019-cu il | Qəzet 1937-ci ildən çıxır | Qiyməti 40 qəpik




# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!



## Vətəndaşlar dinlənildi, yeni tapşırıqlar verildi



Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında Lerik Rayon İcra Hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 59 vətəndaş qəbul edildi.

Rayon icra hakimiyyəti başçısı tərəfindən qəbul edilən vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, ev tikintisi, tikinti materialının verilməsi, maddi yardım verilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi və digər məsələlərlə bağlı idi.

Qəbulda vətəndaşlar tərəfindən səsləndirilən müraciətlərin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

## Piran kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirildi



Rayon icra hakimiyyəti başçısının, hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Piran kəndində Piran kənd inzibati ərazi dairəsindən olan vətəndaşlarla səyyar görüş-qəbul keçirildi.

Öncə rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov görüş iştirakçılarını salamladı və qarşıdan gələn xalqımızın milli bayramı olan Novruz bayramı münasibəti ilə təbrik etdi . Bildirdi ki, cənab Prezidentin tapşırığı ilə yerlərdə səyyar görüş-qəbullar mütəmadi olaraq keçirilir ki, bu görüşlərdə əsas məqsəd vətəndaşları narahat edən problemlərlə yerindəcə tanış olmaq və problemlərin həlli istiqamətində tədbirlər görməkdir. Prezidentin rayonumuza dördüncü tarixi səfərindən və rayonumuza göstərdiyi xüsusi diqqət və qayğısından söhbət açan natiq ölkəmizin digər regionları kimi, Lerik rayonunun da ildən-ilə inkişaf etdiyini, abadlaşdığını bildirdi.

Sonra rayon icra hakimiyyətinin başçısı cənab Prezident tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlardan, o cümlədən minimum əmək haqlarının və pensiyaların, tələbələrin təqaüdlərinin, müharibə veteranlarına, şəhid ailələrinə verilən müavinətlərin əhəmiyyətli dərəcədə artırılmasından, şəhid ailələrinə 11 min manat birdəfəlik vəsaitin ödənilməsindən, məcburi köçkünlərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasından, eyni zamanda problemli kreditlər sahəsində vətəndaşların maliyyə yükünün azaldılmasından və müavinətlərin artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məlumat verdi.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan Ərəstun Bayramov, Aydın Ağayev, Əliməmməd Məmmədov və digərləri çıxış edərək rayon ərazisində həyata keçirilən işlərə görə ölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Piran və Zərigüməco kəndlərində içməli su probleminin həllinə, ərazidə qoz bağlarının salınmasına və süd qəbulu məntəqəsinin tikilməsinə, Piran kəndi ərazisindən keçən çayda sahil bərkitmə işlərinin aparılmasına və bir sıra şəxsi xarakter daşıyan problemlərini həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyəti başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd edərək aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

## Şəhidlər ölməz- Vətən bölünməz!



Cəbrayıl Ağayev Əfqanıstanda od-alovdan keçmişdi. Sonra Qarabağda döyüşdü. Şuşa-Laçın, Kəlbəcər, Füzuli bölgəsində qəsbkar düşmənə qarşı qəhrəmanlıqla vuruşdu.

1993-cü ildə Kəlbəcərdə vuruşarkən şəhid olmuşdu. Döyüş xidmətinə görə Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşdü.



İsfəndiyar Mədətov Ağdərənin düşməndən qorunmasında misilsiz hünər və rəşadət göstərmişdi. O, çoxlu düşmən məhv etmiş, meşədə ac-susuz qalmasına baxmayaraq qulluq etdiyi hərbi hissəyə gəlib çıxımışdı.

Son döyüşü Goranboyun Gülüstan kəndində olub. Həkimlərin cəhdinə baxmayaraq şəhid olub.

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə tədbir



Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə rayonun ictimai-siyasi həyatında fəal olan qadınlarla rayon icra hakimiyyəti başçısının görüşü keçirildi.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov 8 Mart - Beynəlxalq Qadınlar Günü və qarşıdan gələn Novruz bayramı münasibəti ilə qadınları təbrik etdi. Bildirdi ki, Azərbaycan qadını respublikamızın ictimai-siyasi həyatında böyük rol oynayır. Qadınlarımız öz istedadı, zəkası, ağlı və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və yaşadılmasında müstəsna xidmətlər göstərirlər.





Ölkə başçısı Prezident cənab İlham Əliyev qadınlara hər zaman diqqət və qayğı göstərir, onun rəhbərliyi altında təhsildə, səhiyyədə, idarəetmə orqanlarında və digər sahələrdə qadınlar hər zaman vəzifədə irəli çəkilirlər.

Bu gün qadınların ölkəmizin ictimai-siyasi həyatına inteqrasiyası üçün əlverişli şərait yaradıldığını qeyd edən natiq müasir qadının real obrazını yaradan birinci vitse-prezident Mehriban xanım Əliyevanın respublikamızın inkişafındakı və əhalinin sosial problemlərinin həllindəki xidmətlərindən söhbət açdı.

Sonra rayonumuzda da müxtəlif təşkilatlarda, dövlət orqanlarında, yerli özünüidarəetmə orqanlarında qadınların uğurla fəaliyyət göstərdiyini, onlardan bir neçəsinin cənab Prezident tərəfindən fəxri adlara, dövlət təltiflərinə layiq görüldüyünü bildirdi.

Tədbir iştirakçıları adından şəhər 2 saylı tam orta məktəbin müəllimi Usiya Məmmədova, şəhər 1 saylı texniki təmayüllü liseyin direktoru, Əməkdar müəllim Gültəkin Şıxəliyeva və liseyin müəllimi Dünyaxanım Kərimova çıxış edərək son illər cənab Prezidentin tapşırığı ilə rayonumuzda aparılan tikinti-quruculuq işlərinə, eləcə də qadınlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən qadınların bir qrupuna rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı və qiymətli hədiyyələr təqdim edildi.

## "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Quba-Qusar-Xaçmaz istiqamətində tur-aksiyada iştirak edəcək məktəblilərlə görüş keçirildi

Martın 13-də Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində martın 15-18-də Quba-Qusar-Xaçmaz istiqamətində tur-aksiyada iştirak edəcək məktəblilərlə görüş keçirdi. Məktəbliləri salamlayan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gənclərə diqqət və qayğısı nəticəsində qəbul edilmiş müxtəlif dövlət proqramlarının icrası ilə əlaqədar uşaqların, yeniyetmə və gənclərin hərtərəfli inkişafına xidmət edən müxtəlif layihələr həyata keçirilir. Cənab Prezidentin tapşırığına uyğun olaraq məktəblilərin tətil günlərində "Ölkəmizi tanıyaq" layihəsi üzrə ümumtəhsil məktəblərinin şagirdlərinin respublikanın müxtəlif bölgələrinə tur-aksiyaları təşkil olunur.



Martın 15-dən start götürən tur-aksiyanın 11-ci mərhələsi çərçivəsində rayonumuzdan olan 40 nəfər şagird də Quba-Qusar-Xaçmaz istiqamətində turda iştirak edəcəkdir. Bununla əlaqədar həmin gün səhər Heydər Əliyev meydanında yolasalma mərasimi keçiriləcəkdir. Tur-aksiya məktəbliləri rayon icra hakimiyyətinin əməkdaşları, gənclər və idman idarəsinin rəisi, 1 həkim və digər şəxslər müşayiət edəcəkdir.

Quba-Qusar-Xaçmaz istiqamətində turda iştirak edəcək məktəblilər həmin bölgədə son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlərin görüldüyünün əyani şəkildə görəcək, tarixi məkanlar bunlar barədə məlumat alacaq, Quba Soyqırımı Memorial Kompleksi ilə tanış olacaqlar. Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə də seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq. Məktəblilər Qusar rayonundakı "Şahdağ" Turizm Mərkəzinə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər" Muzeyinə, Çənlibel parkına ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Ölkəmiz son illər böyük nailiyyətlər əldə etmişdir. Respublikamızın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edən bir sıra iri layihələr həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları rayonumuzda da uğurla icra edilmişdir. Tur-aksiyada iştirak edəcək məktəblilər bütün bunların əyani şahidi olacaqlar.



Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü liseyinin şagirdi Nərmin Həşimbəyli, Lerik şəhər 3 nömrəli tam orta məktəbinin şagirdi Kənan Seyfullayev, Lüləkəran kənd tam orta məktəbinin şagirdi Məhəmməd Əlizadə, valideynlər adından Lüləkəran kənd sakini Tofiq Fərəcov və digərləri çıxış edərək bildirdilər ki, cənab Prezidentin təşəbbüsü ilə həyata keçirilən "Ölkəmizi tanıyaq" layihəsi məktəblilərin ölkəmiz haqqında biliklərinin genişlənməsinə, dünyagörüşünün artmasına böyük təsir göstərir. Bu layihə gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində böyük əhəmiyyətə malik olmaqla, eyni zamanda gənclərə Vətən tarixinin öyrədilməsində, onların respublikamızın sosial-iqtisadi inkişafı haqqında məlumatlandırılmasında əvəzsizdir. Layihə çərçivəsində məktəblilər ölkəmizin müxtəlif bölgələrinə səfərdən çox zəngin təəssüratla qayıdırlar. Bu tədbirlər həm təhsil işçiləri, həm də valideynlər tərəfindən razılıqla qarşılanır. Çıxış edənlər məktəblilərə ölkəmizin tarixini, mədəniyyətini daha geniş, əyani şəkildə öyrənmək imkanı yaratdığına görə dövlət başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Görüşdə tur-aksiyanın mütəşəkkil qaydada və təhlükəsiz keçirilməsinin təmin edilməsi ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə zəruri tədbirlərin görülməsi tapşırıldı.

# Prezident İlham Əliyev vətəndaşların kredit problemini də həll etdi



Prezident İlham Əliyev Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.

Azərbaycanda əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər, reallaşdırılan iqtisadi və institusional islahatlar vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşmasında, yeni iş yerlərinin açılması sayəsində əhalinin məşğulluğunun və gəlirlərinin artmasında, yoxsulluq səviyyəsinin daha da azalmasında öz müsbət nəticələrini göstərməkdədir.

Lakin qlobal iqtisadi və maliyyə böhranının ölkə iqtisadiyyatına təsirləri əhalinin müəyyən qrupunun ödəmə qabiliyyətinin zəifləməsinə, bunun da nəticəsində, kredit təşkilatlarından xarici valyutada borc almış vətəndaşların bank sistemi qarşısında vaxtı keçmiş kreditlər üzrə öhdəliklərinin artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələlərə məhkəmə müstəvisində baxılma hallarının çoxalmasına rəvac vermişdir.

Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Dövlət başçısı dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyini təmin etmək məqsədilə qərara alıb ki, aşağıda qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu fərman qüvvəyə mindiyi günə Azərbaycan Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödənilsin:

1.1. 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə – 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;

1.2. 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə – 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;

1.3. 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə – bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində qeyd olunan hər iki qaydada nəzərdə tutulduğu kimi.

Bu fərmanın 1-ci hissəsinə əsasən edilən ödəniş ilk növbədə fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilsin, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına verilsin.

Maliyyə Bazarlarına Nəzarət Palatasına tapşırılır ki, Azərbaycan Mərkəzi Bankı ilə birlikdə bu fərmanın 1-ci hissəsində göstərilən tələblər nəzərə alınmaqla, fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi mexanizmini (qaydasını), habelə həmin məbləğə hesablanmış faiz və dəbbə pulu (cərimə, penya) üzrə tətbiq ediləcək güzəştləri müəyyən edərək, Azərbaycan Prezidenti ilə razılaşdırmaqla 15 gün müddətində təsdiq etsin; bu fərmanın 1-ci hissəsinə əsasən ediləcək ödənişin ümumi məbləğini, ödəniş ediləcək fiziki şəxslərin siyahısını və hər bir fiziki şəxsə ödəniləcək vəsaitin məbləğini 45 gün müddətində müəyyən etsin və bu barədə Azərbaycan Maliyyə Nazirliyinə və Azərbaycan Mərkəzi Bankına məlumat versin.

Müəyyən edilir ki, bu fərmanın 1-ci hissəsinə əsasən bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 min ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır.

Azərbaycan Mərkəzi Bankına tövsiyə edilir ki, bu fərman qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək olan kreditlər üzrə vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə, Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında, banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilməsini təmin etsin; bu fərmanın 5.1-ci bəndində nəzərdə tutulan tədbirlər nəticəsində bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 milyon ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin etsin; bu fərmandan irəli gələn digər tədbirlərin həyata keçirilməsini təmin etsin.

Banklara tövsiyə edilir ki, bu fərmanın 7.1-ci bəndində nəzərdə tutulan siyahı üzrə vaxtı keçmiş kredit borcu olan fiziki şəxslərə yeni güzəştli kredit müqaviləsi bağlanmasını təklif etsinlər; fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, banklar bir ay müddətində həmin kreditlərə hesablanmış faizlərin silinməsini və məhkəmədə olan işlərin geri çağırılmasını təmin edən tədbirlər görsünlər; borcları restrukturizasiya olunmuş fiziki şəxslərin borc yükünün yüngülləşdirilməsini təmin edən digər tədbirlər görsünlər.

Maliyyə Bazarlarına Nəzarət Palatasına tapşırılır ki, banklarla birlikdə bir ay müddətində fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək olan kreditləri üzrə vaxtı keçmiş və bu fərmana əsasən hər bir bank üzrə restrukturizasiya olunmalı kredit borclarının məbləğini və borcluların siyahısını müəyyən edərək, bu barədə Azərbaycan Prezidentinə, Maliyyə Nazirliyinə və Azərbaycan Mərkəzi Bankına məlumat versin; bu fərmanın 1-ci və 2-ci hissələrinin banklar tərəfindən icrasını nəzarətdə saxlasın və həmin hissələr icra edildikcə, bu fərmanın 5.1-ci bəndinə uyğun olaraq Azərbaycan Mərkəzi Bankına müraciət etsin; bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

Müəyyən edilsin ki, bu Fərmanın məqsədləri üçün:

- fiziki şəxslərin xarici valyutada 10 min ABŞ dollarınadək və ya milli valyutada 17 min manatadək olan əsas kredit borcları dedikdə onların bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;
- 10 min ABŞ dollarınadək və ya 17 min manatadək məbləğ dedikdə müvafiq olaraq 10 min ABŞ dollarının və ya 17 min manatın da daxil olduğu məbləğ;
- bu Fərmanın 5-ci və 7-ci hissələrində fiziki şəxslərin kredit borcları dedikdə onların 2012-ci il yanvarın 1-dən bu fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələrinə əsasən bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;
- bank dedikdə banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);
- ləğvetmə prosesində olan bank dedikdə ləğvetmə prosesində olan banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);
- vaxtı keçmiş kredit borcu dedikdə fiziki şəxslərlə 2012-ci il yanvarın 1-dən bu fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi 360 gündən çox gecikdirilmiş borclar;
- restrukturizasiya dedikdə əsas kredit borclarının ödənilməsi məqsədilə fiziki şəxslərə güzəştli kreditlərin verilməsi;
- güzəştli kredit dedikdə fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə onlara banklar tərəfindən illik faiz dərəcəsi 1 faiz, banklara isə Azərbaycan Mərkəzi Bankı tərəfindən illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə verilən kreditlər;
- faizlərin silinməsi dedikdə vaxtı keçmiş kredit borcları üzrə hesablanmış faizlərin və dəbbə pulunun (cərimə, penya) silinməsi;
- məhkəmədə olan işlərin geri çağırılması dedikdə vaxtı keçmiş kredit borcları ilə bağlı məhkəmələrdə olan iddialardan imtina edilməsi və icra sənədi üzrə icraata xitam verilməsi ilə əlaqədar Azərbaycan Mülki Prosessual Məcəlləsinin və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tədbirlər görülməsi nəzərdə tutulur.

Maliyyə Nazirliyinə bu fərmanın 5.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanətinin rəsmiləşdirilməsi üçün zəruri tədbirlər görmək; bu fərmandan irəli gələn digər tədbirlər görmək tapşırılıb.

Əmanətlərin Sığortalanması Fonduna və ləğvedici funksiyalarının həvalə olunduğu digər şəxslərə tövsiyə edilir ki, ləğvetmə prosesində olan banklarda fiziki şəxslərin vaxtı keçmiş əsas kredit borclarının restrukturizasiyasını təmin edən tədbirlər görsünlər.

Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll edəcək.

# Lerik alimlərin tədqiqatlarında

***Odlar yurdu Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan, bəşər sivilizasiyasına nadir tarixi-mədəni incilər bəxş edən Lerik rayonunun ərazisi (1084 kv.km) zəngin fauna və florası, tarixi-arxeoloji abidələri, təbii-iqlim şəraiti, görkəmli alimlərin, tanınmış şəxsiyyətləri ilə məşhurdur. Bunu alimlərin tədqiqatlarında, səyyah və arxeoloqların tapıntılarında da aydın görmək mümkündür.***




Tədqiqatçı-jurnalist, bir sıra dəyərli kitabların müəllifi İdris Şükürlü ilə hər dəfə görüşəndə yeni çapdan çıxmış kitab və qəzetlərdə mühüm yeniliklərlə, yurdumuzun açılmamış səhifələri ilə bizi tanış edir, görkəmli şəxsiyyətləri barədə bizə məlumat verir. Jurnalist dostunun tapıntıları marağımıza səbəb olur. O, məqalələrində araşdırdığı obyektlərin mahiyyətinə bir bölgənin, rayonun deyil, Azərbaycan kontekstində yanaşır, doğru-dürüst nəticəyə nail olur, problemlərə toxunur.

Budur, "Lerik" qəzetində, "Məşəl" jurnalında, "Məktəb press" qəzetində, bəzi kitablarında müxtəlif vaxtlarda dərc olunmuş məqalə, müsahibə və araşdırma yazıları qarşımdadı. "Tarixin daş yaddaşında - daşlaşmış poeziya", "Veri kəndinin abidələri", "Abidələr tariximizdir", "Qalalarımız, qalanlarımız", "Tarixin daş yaddaşına, biganəlik hökm sürür", "Neçə Qız qalası var", "Ən mühüm yenilik", "İkinci paleolit düşərgəsi", "Paleolit arxeoloji ekspedisiyasının 2015-ci ildə apardığı tədqiqat işlərinin ilkin nəticələri" və s. publisistik məqalələrini xatırlayıram. Onları jurnalist İdris Şükürlü qələmə alıb, çap etdirərək oxuculara təqdim edib, yaxşı rezonans yaradıb.




## Tarixin açılmamış səhifələrinə səyahət

Adını çəkdiyimiz məqalələrdən öyrənirik ki, ilk dəfə 2011-ci ildə Zuvandçay mağarasında kəşfiyyat xarakterli arxeoloji qazıntı işlərini AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Daş Dövrü Arxeologiya şöbəsinin müdiri, tarix elmləri doktoru Əsədulla Cəfərov aparmışdır. Alim demişdir: "Arxeoloji və kəşfiyyat işləri zamanı tapılan daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən əmək alətləri Mustye mədəniyyəti dövründə hazırlanmışdır. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət qalıqları əsasında deyə bilərik. Zuvandçay mağara-düşərgəsində ibtidai insanların burada 130 min il bundan əvvəl məskunlaşmışlar".

Ən mühüm yenilik də bundan ibarətdir. Alimin fikrincə, yaşayış sahəsinə görə, yeni qeydə alınmış Zuvandçay mağarasını Azərbaycanın Qarabağ ərazisində qeydə alınmış Azıx paleolit düşərgəsindən sonra ikinci paleolit düşərgəsi hesab etmək olar...

Bəli, bu yenilik Azərbaycan arxeologiya elminə mühüm töhfə, tarixin açılmamış bir səhifəsidir. Bu səhifələr indi ən parlaq ziya saçır, xalqımızın qədimliyini, aborgenliyini, yüksək sənətkarlıq xüsusiyyətlərini, mədəniyyətini göstərir, arxeologiya elminə mühüm töhfədir.

Daha qədim dövrə baş vursaq, AF.Stahl (1907), F.F.Osvald (1910), B.B.Boqaçvin (1916-1930) tədqiqatlarını çıxmaq şərti ilə Lerik ərazisinin geologiyası öyrənilməmişdir. Ərazinin tədqiqi sistemsiz şəkildə olsa da, P.B. Avdusin, M.O.Qutman, A.F.Mixaylov, V.P.Kutsevin (1932-1937) arxeoloji qazıntıları və elmi-nəzəri əsərləri ilə başlanır. Azərbaycanın görkəmli arxeoloq alimlərindən M.Hüseynov, F.Mahmudov, İ.Əzimbəyov, A.Ələkbərov, Ə. Cəfərov, Q.Qoşqarlı, S.Nərimanov, Ə.CXəfərov və başqaları maddi-mədəniyyət abidələrinin üzə çıxarılması, tədqiqi üçün çox iş görmüşlər.

Almaniyanın botanik alimi F.Qoqenhager, fransız Jak de Morgan, K.Şaffer, rus U.Leqkobıtov, Qrosheym, səyyah-yazıçı A.Düma, şərqşünas B.V.Miller, professor M.Seyfəddini, akademik İ.Əliyev, maarifçi və folklorşünas T.Bayraməlibəyov Lerikin maddi-mədəniyyətini, ərazisini, tarixini, etnoqrafiyasını, fauna və florasını tədqiq edib öyrənmək baxımından çox iş görmüşlər.

Adlarını çəkdiyim mərhum alim, etnoqraf, arxeoloq, səyyah, folklorşünasların ruhu şad olsun, deyirəm. Sağ qalanlara, yaşadıqca öz ömürlərini kərpic-kərpic söküb möhtəşəm qala tikənlərə isə ən xoş arzularımı bildirirəm.



***Xalıq Əbutalıboğlu***

# Dövlət sosial qayğıya ehtiyacı olan vətəndaşları sevindirdi

**Dövlət sosial qayğıya ehtiyacı olan vətəndaşları sevindirdiSahil Babayev: "Yeni sərəncamla sosial müavinətlərdə və Prezidentin aylıq təqaüdlərində əhəmiyyətli artımlar edilib"**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 25 fevral 2019-cu il tarixli Sərəncamı dövlət başçısının daha bir humanist təşəbbüsünün nəticəsi olmaqla, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm tədbirlərin ardıcıl xarakter aldığını göstərir.

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Sərəncamın icrası ilə əlaqədar görüləcək işlərə dair bu gün keçirdiyi mətbuat konfransında vurğulayıb. Nazir bildirib ki, Sərəncam ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir.



O deyib ki, Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 82 manatdan, müharibə əlilləri üçün 101 manatdan, "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 94 manatdan) 150 manata, II qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 61 manatdan, müharibə əlilləri, "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 81 manatdan) 130 manata, III qrup əlilliyə görə isə (ümumi səbəblərdən əlillər üçün 52 manatdan, müharibə əlilləri üçün 73 manatdan və "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 61 manatdan) 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulur.

Nazir qeyd edib ki, bunun üçün Sərəncama uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müvafiq normativ hüquqi aktların layihələrini on beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

S.Babayev bildirib ki, həmçinin sosial müavinətin məbləğinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları (himayəçiləri) üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləğinin isə 146 manatdan 300 manata çatdırılması üçün normativ hüquqi aktların layihələri nazirlik tərəfindən hazırlanaraq qeyd olunan müddətdə dövlət başçısına təqdim olunacaq. 25 fevral 2019-cu il tarixli Sərəncam eyni zamanda Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaradıb. Belə ki, Sərəncamda I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi də yer alıb.

Nazir diqqətə çatdırıb ki, sənəddə bu məqsədlə, habelə müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi üçün də normativ hüquqi aktların layihələrinin on beş gün müddətində hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılır.

S.Babayev deyib ki, dövlət başçısının yeni Sərəncamı ilə müharibə əlillərinə də Prezidentin təqaüdünün məbləğinin I qrup əlilliyə görə 182 manatdan 250 manata, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılması təmin ediləcək. Həmçinin sənəd əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Prezidentin təqaüdünün əmək pensiyası almaq hüququ olan I qrup əlillərə (gözdən əlillər istisna olmaqla) də şamil olunmasını və bu təqaüdün məbləğinin 73 manatdan 100 manata çatdırılmasını nəzərdə tutulur.

Nazir qeyd edib ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği hazırda 121 manatdır ki, bu məbləğin də 150 manata çatdırılması Sərəncamda əksini tapır.

S.Babayev həmin artımların edilməsi üçün də Sərəncama əsasən normativ hüquqi aktların layihələrinin hazırlanaraq qeyd olunan müddətdə, yəni on beş gün müddətində dövlət başçısına təqdim olunacağını vurğulayıb. O, diqqətə çatdırıb ki, qeyd olunan müavinət və təqaüdlərin cari ilin aprelin 1-dən artırılması nəzərdə tutulur. Bu artımlar üçün cari ilin 9 ayı üçün əlavə olaraq 300 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq.

Sonra nazir KİV nümayəndələrinin suallarını cavablandırıb.

# Azərbaycançılıq və Novruz adətləri

Qeyd edildiyi kimi, Azərbaycanda ilin başlanmasının-yazın gəlməsinin bayram kimi qeyd edilməsi qədim bir tarixə malikdir. Yaz bayramının zərdüştlərin daha geniş və təntənə ilə qarşılaması dini etiqada görə, Ahuraməzdənin Anqramanyu üzərində qələbə əldə etməsi ilə izah edilirdi. Yaz bayramının Novruz adlanması ilk orta əsrlərdən məlumdur. Qədim məlumatlardan bu bayram çəşn-bahar bayramı adlandırılmışdı. Ömər Xəyyamın "Novruznamə" əsərində Novruz bayramının tarixindən söhbət gedərkən deyilir: "Novruzun yaranmasının birinci səbəbi odur ki, həmin gündə Günəş dövrə vurub 365 gün altı saatdan sonra öz yerinə qayıdır." Yaz bayramı haqqında yazılı məlumat e.ə. 505-ci ildə məlum olmuşdur. Novruz bayramı mərasimi haqqında bəhsə başlamazdan əvvəl icra edilən şənlik və bəzi adətlərdən danışmaq lazımdır. Bu adətlər çərşənbə axşamı və xüsusi ilə axır çərşənbə axşamı mərasimində qabarıq şəkildə əks etdirilir. Bu mərasimdə əsas yeri odla əlaqədar adət və ayinlər tutur. İlin axır çərşənbəsində xalq arasında müxtəlif adətlər olmuşdur. Həmin adətlərdən biri də həyətlərdə tonqal qalamaqdan ibarətdir. Tonqal yandırılarkən ailə üzvləri onun ətrafında toplanıb şadlıq edər, tonqalın üstündən tullanardılar. Tonqal mərasimi qurtardıqdan sonra qulaq falına çıxardılar.

Şal sallamaq və bunun digər forması olan qaşıqla kasa çalmaq axır çərşənbə ilə əlaqədar olan adətdir. Bu, axır çərşənbə ilə əlaqədar olan adətlərin içərisində ən qədimlərindən biridir.

Bayram günlərində müxtəlif əyləncələr, o cümlədən, zorxana səhnələri, çofgən, çərəq oyunları, oxatma və s. yarışlar da keçirilirdi. Novruz bayramı nəinki orta əsrlərdə, hal-hazırdı xalqımızın həyatında özünəməxsus yer tutmuşdur.

Doğma torpaqlarımızdan uzaqlaşdıqca, onları alıb getdikcə, elə bil birliyimiz və mehribanlığımız pozuldu. Öz keçmişimizdən, gözəl adət və ənənələrimizdən uzaqlaşa-uzaqlaşa özümüz də dəyişdik, başqalaşdıq. Amma atalar yaxşı deyib, ziyanın yarısından da qayıtmaq xeyirlidir. Gəlin, hələ nə qədər gec deyil, nə qədər ki, hələ yaddaşımızda qalanların hamısını itirməmişik, qayıdaq yaddaşımıza, özümüzü özümüzə qaytaraq. Bunun üçün adət-ənənələrimizi, mərasimlərimizi bərpa etmək bizə bu gün nə qədər fayda verərdi. Bu mərasimin sıralarında elələri də var ki, taleyimiz kimi bizə təmənnasız bəxş olunub. Özü də bu bayramların təntənəsinə insan daxili, ruhi oyanışın təsiri ilə hazırlaşır. Bu Zərdüştün dini təlimində qeyd olunan yeddi bayramın ən təntənəlisi, fars mənbələrində "Novruz" (Yeni gün) adı ilə qeyd olunanıdır. Bu bayramda varlı-kasıb, eyni şəkildə, eyni hüquqla iştirak etmiş, umu-küsünü unudub dostluq münasibətlərini möhkəmləndirməyə çalışmışdır. İstər qədim, istər orta əsrlər, istərsə də sonrakı dövrlərdə xalqımız Novruzu on əziz gün kimi gözləmişdir. Novruz ənənəsi xalqımızın ruhuna o qədər hopub ki, hətta 70 illik imperiya dəhşəti də onu sarsıda bilmədi. Şükürlər olsun ki, xalqımız bu gün də Novruz sevinclərini yaşamaqdadır.

Folklorşünas alim, professor Azad Nəbiyev Novruz adətlərinin azərbaycançılıq hissinin aşılanmasında oynadığı roldan bəhs edərək yazır: "Xalq özünün həyat, sağlamlıq, təmizlik, əmək vərdişi ilə bağlı bir çox ayin, etiqad və mərasimini Novruzla bağlamış, beləliklə də, onların el içərisində geniş yayılmasına və kütləviləşməsinə nail olmuşdur. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qız-gəlinə təzə çəkmə, qırmızı don geydirərdilər.

Novruz adətlərində ulu babalarımızın ən müdrik dünyagörüşü-humanist baxışları, həlim, qayğıkeş təbiəti özünü göstərir. Bu nümunələrdə xalq gigiyenasının əhəmiyyəti, onun təbliği, yaxşılıq, xeyirxahlıq, Vətəni sevmək və s. kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər əks olunmuşdur."

Novruz adətləri aşağıdakılardır:

Novruza hazırlıq görərlər.

Novruzda həyət-bacanı təmizləyərlər.

Novruzda evləri şirələyər, paltar-palazı təmiz suya çəkərlər.

Novruza qədər ağacların dibini bellərlər.

Novruza qədər ağacların quru budaqlarını kəsib atarlar.

Novruzda səməni göyərdərlər.

Novruzda unnuq çəkərlər.

Novruzda səməni halvası bişirərlər.

Novruzda niyyət eləyərlər.

Novruzda Novruz süfrəsi açarlar.

Novruzda tonqal yandırarlar.

Novruzda üzərrik yandırıb tüstüsünü mal-qaraya, oğul-uşağa, ev-eşiyə verərlər.

Novruzda təzə paltar alarlar.

Novruzda qız-gəlini təzə donla sevindirərlər.

Novruzda ox atmağa hazırlaşarlar.

Novruzda at çapmağa tədarük görərlər.

Novruzda şənliklərə gedərlər.

Novruzda Novruz xonçası bəzəyərlər.

Novruzda yumurta boyayarlar.

Axır çərşənbədə uşağa beşik düzəldərlər.

Axır çərşənbədə gün çıxmamış su üstündən atlanarlar.

Axır çərşənbədə tonqal yandırarlar.

Axır çərşənbədə qorxanların başından su töküb qorxuluğu alarlar.

Axır çərşənbədə kəlin buynuzuna qırmızı bağlarlar.

Axır çərşənbədə sağmal malın buynuzuna qırmızı bağlarlar.

Axır çərşənbədə toy üçün ayrılmış qoyunların boynuna qırmızı bağlarlar.

Axır çərşənbədə evdən pul verməzlər.

Axır çərşənbədə qonşuya ələk verməzlər.

Axır çərşənbə günü borc un verməzlər.

Axır çərşənbə günü şam yandırarlar.

Axır çərşənbə günü şamı yarımçıq söndürməzlər.

Axır çərşənbə günü ailə üzvlərinin sayına görə şam yandırarlar.

Axır çərşənbə günü evdən od, kibrit, neft verməzlər.

Axır çərşənbə günü evdən ağartı verməzlər.

Axır çərşənbə günü zahı üstünə getməzlər.

Axır çərşənbə günü evdən çörək verməzlər.

Axır çərşənbə gecəsi tez yatmazlar.

Axır çərşənbə gecəsi evdə qazan asarlar.

(Davamı səh. 4-də)

Aktual mövzu

# Qaraçöhrənin (lat. taxus baccata) ağ günləri

**Daş əsrində və yaxud bürünc dövründə Azərbaycanın ərazisinin nə qədər sahəsinin meşələrlə örtülü olduğu heç kəsə məlum deyildir. Tarixçilər və pedaqoqlar, coğrafiyaşünaslar, botaniklər, meşəçilər respublikamızın düzən və dağ zonalarında müasir meşələrimizin vaxtilə olub-olmadığını öyrənmək üçün xeyli tədqiqat aparmışlar, indi də bu sahədə müəyyən işlər görülür.**

Bizim geoloji əsrimizdən IV dövrün bir milyon ilə yaxın yaşı vardır. Bu dövrün ən böyük hadisəsi isə insanın əmələ gəlməsidir. Ona görə IV dövrə ayrı bir ad da veriblər-antropogen. Bu dövrün digər vacib hadisəsi isə ərazisin buzlaşmasıdır. Min illər ərzində Skandinaviyanın dağlarında toplanmış nəhəng buzlaqlar Avropa hissəsindən cənuba doğru axıb gəlməyə başlamış və çox geniş sahələri, o cümlədən Azərbaycanın ərazisini də əhatə etdi. Burada buz axınlarından yalnız Talış zonası və cənubi Zaqafqaziya yaxa qurtara bilmişdir.

Buzlaşma dövründə III dövrün zəngin florası donub məhv olmuş, onların tərkibi xeyli kasıblaşmışdır. Ərazisində soyuğadavamlı toz ağacı, şam ağacı və digər incilər yayılmışdır. Bəzi istisevər subtropik bitkilər: dəmirağacı, şümşə, şabalıdyarpaq palıd, azat və s. cinslər özlərinə yalnız Talış zonasında etibarlı sığınacaq tapa bildilər. Həmin dövrdən min illər keçməsinə baxmayaraq respublikamızın ərazilərində bu gün də tək-tək və yaxud qrup halında bitən keçmiş meşə florasına aid olan ağac bə kol növlərinə rast gəlirik.




## Qaraçöhrəni dövrümüzə kimi yaşadan nədir?

Son dərəcə nadir və qiymətli qaraçöhrə ağacının müasir geoloji dövrümüzə gəlib çıxması onun uzun ömürlü olması ilə də əlaqədardır. Əlverişli şəraitdə qaraçöhrə 3 min il və daha çox ömür sürür. Cavan yaşlarında çox ləng böyüyür. 100 yaşında cəmi 10-12 metr boy atır. Bu yaşdan



sonra boy artımı sürətlənir. Qafqazda yaşlı qaraçöhrə ağaclarının boyu çox vaxt 24-28 metrə, gövdəsinin diametri isə 1, 5 metrə çatır.

**Bəs görəsən qaraçöhrəni dövrümüzə kimi yaşadan nədir? Bu sualın cavabını, bu sirri qaraçöhrənin bioloji keyfiyyətləri açır.** Təbiətşünas alim Mahmud Xəlilov "Qaraçöhrə" adlı məqaləsində yazır: "Bunlardan ən mühümü qaraçöhrənin qabığının, iynələrinin, zoğlarının, oduncağının zəhərli, toxumalarının isə yeməli olmasıdır. Zəhərli orqanları bu ağac növünü neçə milyon illər vəhşi heyvanların zədələnməsindən mühafizə etmiş və arcalının genişlənməsinə şərait yaratmışdır. Qaraçöhrənin yeməli toxumları həm dadlı, həm şirin, həm də parlaq rəngə malik olub, quşların diqqətini özünə cəlb edir, onun artması və yayılmasında böyük rol oynayır.

Qaraçöhrənin indiyədək qalması səbəblərindən biri də onun yüksək pöhrəvermə qabiliyyətidir. Bu xassəsini qocalığında da saxlaya bilir.

Qaracöhrənin uzunömürlü olmasına səbəb onun oduncağının ziyanverici həşaratlara və göbələk xəstəliklərinə qarşı olduqca dözümlüdür, davamlıdır. Qaraçöhrə şaxtaya və küləyə qarşı da davamlıdır".

## Təmiz ağaclıq halında bitən yeganə meşə sahəsi

Elmi mənbələrdən bəlli olur ki, bu nadir ağac növü vaxtilə Avropada, Kiçik və Şərqi Asiyada, Şimali Amerikada, Türkiyə, İran və Suriyada geniş sahələr tuturmuş. İndi həmin rayonlarda tək-tək və qrup halında rast gəlmək mümkündür.

Qafqazda isə bu qiymətli ağacın qrup və kiçik sahələrinə 30 yerdə təsadüf olunmuşdur. Bunlardan ən məşhuru Gürcüstanda Bastara dərəcəsindədir.

Azərbaycanda qaraçöhrənin varlığına nəzər yetirək. Balakəndə, Şamaxıda, Tovuz, İsmayıllı, Gədəbəy, Daşkəsən, Kəlbəcər və Dağlıq Qarabağda dəniz səviyyəsindən 400-1800 yüksəklikdə bitir. Qəbələnin Həmzəli kəndində, Zaqatala meşələrində və Lerik rayonunda Üçüncü dövr nadir florası olan qaracöhrəlik diqqəti cəlb edir.

**Lerik rayonundakı qaraçöhrə meşəliyini Qafqazda qoruyucu örtüksüz şəkildə yəni təmiz ağaclıq halında bitən yeganə meşə sahəsi hesab olunur.** Digər ağac cinslərinin qarşılığı olmadan qaraçöhrəli, qədim Hamarat kəndi yaxınlığında Alçalıq adlanan yaylaqda, Sanqadabulaq çayının sol sahilində, dəniz səthindən 1200-1300 metr yüksəklikdə, sıldırım yamacın cənubi-qərbində yerləşir, sahəsi 2 hektara yaxındır. Bu meşəlikdən 1500-2000 metr aşağıda 30 ədədə qədər başqa qaraçöhrə ağacı qrupu vardır. Bir-birinə yaxın yerləşən hər iki qaraçöhrəlik geniş meşəsiz ərazidə yerləşir. Onların burada mövcudluğu maraq doğurur. Bəlkə də meşənin burada qalmasının bir səbəbi də qaraçöhrənin müqəddəs ağac hesab edilərək toxunulmaması, digər səbəbi isə, onun yarpaqlarının, zoğlarının , qabığının, gövdəsinin zəhərli olub malqara tərəfindən zədələnməməsidir.

Yardımlı rayonunun Alar kəndinə yaxın sahədə bir-birindən aralıda yerləşən 6 ədəd qaraçöhrə ağaclarına təsadüf olunmuşdur. Yerli əhali qaraçöhrə ağacına "peyğəmbər ardıcı" deyir, bu ağacı müqəddəs hesab edir.

Biz Bradi kəndində olarkən nurani bir kişi ilə rastlaşdıq. Qaraçöhrə ilə maraqlandığımızı görüb dedi:- burada böyüklərdən eşitmişəm . Həmin ağacın yarpaqlarını, zoğlarını yeyən keçi ölub. Ona görə də bu ağaca yerli adamlar keçi öldürən deyiblər.

## Qaraçöhrənin kəsilməsi bütün dünyada qadağan edilib

Qaraçöhrənin ziyarətinə gedərkən Bradi kəndinin ziyalısı Habil Əliyev və Dastan həkim məntəqəsinin həkimi Nizami Suvarov bizə bələdçilik etdilər. Doğrusu, qaraçöhrə meşəliyin gördükdə, ərazi ilə tanış olduqda xeyli heyrətləndim. Əvvəla, meşəliyi belə təsəvvür etmirdim. Elə zənn edirdim ki, 20-30 ağacdan ibarətdir. Elə zənn edirdim ki, 20-30 ağacdan ibarətdir. Antropogen dövrünün bəşəriyyət üçün qoruyub saxladığı bir yadigarla-relikt qaraçöhrə ağacları ilə üz-üzə idik. Hər bir ağac qiymətli abidə, qaya parçaları isə qoruyucu əsgərlər idi sanki.

Dünya miqyasında qaraçöhrə meşələrinin azalmasına, arealının qarşısının alınmasına, nəslinin yox olma təhlükəsi qarşısında qalmasına əsas səbəblərdən biri də müntəzəm olaraq davam edən insan fəaliyyəti ilə əlaqədardır. Bu ağacın sənaye üçün əvəssiz material olması, oduncağından müxtəlif dülgərlik, məişət avadanlıqlarının hazırlanması nadir ağacların kəsilməsinə, nəslinin azalmasına səbəb olmuşdur. Hələ çox qədimlərdə ingilislər öz məşhur ox və kamanları üçün qaraçöhrə materialından istifadə etmişlər.

Qaraçöhrə gözəl dekorativ görünüşə, estetik gözəlliyə malik həmişəyaşıl ağacdır. Çətiri yumurtavari slindir şəklində sıx tünd yaşıl iynələrdən təşkil olunmuşdur. Bu relikt bitkisi qayçılamanı da olduqca yaxşı



qəbul edir və ona verilən formanı uzun müddət saxlayır. Bir sıra ölkələrdə qaraçöhrə bəzək bitkisi kimi şəhərdə becərilir, parkları bəzəyir.

## Səlahiyyət sahibləri sözümüz sizədir

Biz Lerik rayonunun ərazisində məskunlaşmış qaraçöhrə meşəliyi barədə iradlarımızı və tənqidi fikirlərimizi bildirməyi bir jurnalist, publisist təbiət təəssübkeşi, bir vətəndaş olaraq özümüzə borc bildik. Bəşəriyyətin Azərbaycana bəxş etdiyi nadir incilərdən biri də qaraçöhrədir. Yəqin indi uzaq Amerika alimləri, ekoloqları da bundan xəbərsiz olmazlar.

Meşəliyin ətrafındakı ərazilər hazırda otlaq kimi istifadə olunur. Meşəaltında yeniyetmə və cavan ağacların olmaması şübhəsiz, burada mal-qaranın intensiv otarılması ilə əlaqədardır. Ərazidə ilboyu mal-qara, qoyun-keçi otarılır, yayın isti günlərində mal-qara körpə ağacları dırnaqları ilə basıb məhv edir. Biz qaraçöhrə meşəliyini gəzərkən çoxdan kəsilmiş ağaclara rast gəldik. Deməli, nadir ağaclara balta çalanlar da var.

Hörmətli Ekologiya və Təbii Sərvətlər Naziri, 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Lənkəran Regional Meşə Bərpası Mərkəzinin rəhbərləri, sözümüz Sizlərədir. Dünyada nadir olan, yaşıl ağacların tacı, yurdumuzun şöhrəti, Azərbaycanın nadir meşə örtüyünə malik olduğunu göstərən qaraçöhrə meşəliyinə diqqət və qayğını artırmaq, sahəsini genişləndirmək, bu nadir ağacları əli baltalılardan, digər zərərvericilərdən qorumaq olmazmı? Dünyada nadir olan bu meşəliyin dövlət tərəfindən qorunduğunu göstərən lövhələr açmaq necə, çətindir?

Çox yaxşı olardı ki, qaraçöhrə meşəliyi dəmir torla hasara alınsın, turistlərin baxması üçün girişlər qoyulsun, burada qaraçöhrənin elmi, bioloji, tibbi mahiyyətinə dair plakatlar asılsın. Meşəliyi daim qorumaq, nəzarətdə saxlamaq, təbliğ etmək üçün



bu ərazini onu qoruyana təhkim etmək, qoruq elanq etmək yaxşı olardı.

Bir sözlə, nə ediriksə, Azərbaycan naminə etməliyik.

***İdris Şükürlü,***
***Əməkdar jurnalist***

# Qəlblərdə yaşayan alim-pedaqoq

***Xalq ziyalısı ilə adını tarixə yazır. Ziyalı millətin, xalqın inkişaf yoluna nur saçan insandır, onun düşünən beynidir. Sözün qısası, hər bir millət ziyalısı ilə zəngindir, alimi ilə yenilməzdir.***



Haqqında bir neçə söz yazmaq şərəfinə nail olduğunu ziyalılarımızdan biri də görkəmli alim-pedaqoq tanınmış təqaüdçü, filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovdur.

Vaxtilə doğulub boya-başa çatdığı Lerikdə müəllim işləyib, qısa zaman kəsiyində şagirdlərin və valideyinlərin böyük məhəbbətini qazanmaqla yanaşı, gənc Xeyrulla müəllim bədii sözün sehri ilə şagirdlərini zəngin olduğu qədər sonsuz ədəbiyyat aləminə apara bilirdi. Əbəs yerə deyildir ki, vaxtilə dərs dediyi şagirdlərinin çoxu sonralar filoloq, dilçi, jurnalist, publisist kimi hörmət-izzət sahibi olmuşlar.

Az sonra indiki Azərbaycan Dövlət Pedoqoji Universitetində (keçmiş APİdə) Azərbaycan ədəbiyyatı tarixinin ən şanlı dövrünün-XIX əsrin sonu XX əsrin əvvəllərini əhatə edən bir dövrün ədəbiyyatını tədris edərəkən o, hər bir tələbənin qəlbində lirik, kövrək, təmiz hisslər, saf duyğular oyatmağa çalışırdı. Danılmaz həqiqətdir ki, tələbə aləmi ən pak, ən ülvi, romantik duyğular aləmidir. Bu aləmin zirvəsini fəth etmək isə yalnız Xeyrulla müəllim kimi yüksək mədəniyyətə, dərin zəkaya, intellektə malik olan pedaqoqlara nəsib olurdu.

Xeyrulla müəllim ciddi olduğu qədər də, kövrək bir insan idi. Mərhum xalqımızın korifey sənətkarları Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə, Məhəmməd Hadi, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseyinzadə və digər vətənpərvər ziyalılarımızın həyatı və yaradıcılığı barədə danışanda, onlardan iqtibaslar söyləyəndə gözləri yaşarır,təbii hisslərini auditoriyadan gizlədə bilmirdi.

Xeyrulla müəllim bütün ömrünü arxivlərdə keçirmiş, həyatını elmə, tədqiqata həsr etmişdir. "XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda realist-maarifçi ədəbiyyat", "Sultan Məcid Qənizadə", "Əkinçidən"- "Molla Nəsrəddinə" qədər" və digər sanballı monoqrafiyaları, elmi , publisistik məqalələri bu gərgin əməyin bəhrələridir. O, aspirantlarına da tələbələrinə də həmişə tövsiyə edirdi ki, oxuyun, öyrənin, mətbuatda çıxış edin. O, prinsipial bir tədqiqatçı, elmi həqiqəti cəsarətlə ortaya çıxaran, diskusiyalarda inandığı həqiqəti sonadək müdafiə edən bir alim, gözəl bir natiq, təkrarolunmaz bir müəllim idi.

Xeyrulla müəllim xeyirxahlığı, ən kiçik bir yaxşılığı unutmayan, ən ali, nəcib hissləri özündə yaşadan bir ziyalı idi. O, xeyirxah müəllimləri-akademik Mirzə Feyzulla Qaslmzadə, akademik Əziz Mirəhmədova, Moskva Dövlət Universitetinin professoru Əziz Şərif və digərləri, alim dostları-professorlar Firudin Hüseynov, Bəşir Bəşirov, Qulamhüseyin Əliyev, Abbas Hacıyev, tələbəsi -professor Nizami Xudiyev haqqında həmişə minnətdarlıqla danışardı.

O, məktəb dostları-atam Mirzəbala Əluyev, həkimlər-Əli Bədəlov, Mirzəcan Səfərov, Xasay Nəzərov, Müştəba Rüstəmov və digərləri ilə etdiyi şux zarafatları, onlarla əlaqədar maraqlı əhvalatları dönə-dönə söyləməkdən doymazdı. Xeyrulla müəllimin hər Lerikə gəlişi dostları, qohumları üçün toy-bayrama dönərdi.

Böyük mütəfəkkirimiz Saib Təbrizi deyirdi: "Kimsəsizlərin başımın üstə şam kimi yanmasan, öləndən sonra qəbrinin üstə şam yandırmazlar". Xeyrulla müəllim özü də imkansız , kimsəsiz tələbələrə qayğıkeşlik göstərər, bu nəcib işindən hədsiz zövq alardı.

Xeyrulla müəllimin ən mühüm məziyyətl ərindən biri də kitab həvəskarı olması idi. O, ixtisasına dair kitablarla yanaşı, Azərbaycan, şərqin tarixinə, mədəniyyətinə, dünyanın ən görkəmli şəxsiyyətlərinə aid olan kitabları da həvəslə toplayardı. Dövrünün bütün ensiklopedik nəşrləri onun kitabxanasının bəzəyi idi. Tövsiyə edərdi ki, şəxsi kitabxanamız olsun. Həm də dönə-dönə tapşırarsdı ki, daha çox ixtisasınıza uyğun, eləcə də yüksək elmi dəyəri olan kitablar toplayın. Deyərdi ki, monoqrafiyaları hökmən əldə edin, onlar bir dəfə nəşr olunur.

Xeyrulla müəllimin yetirmələrinə Respublikamızın bütün guşələrində rast gəlmək mümkündür. Onlar müəllimlərinin əziz xatirəsini xeyirxah əməllərində yaşadılar.

Ali məktəb tələbələri, aspirantlar indi də onun elmi irsindən bəhrələnirlər. Lerik Rayon İcra Hakimiyyəti aparatının diqqəti və qayğısı sayəsində şəhərimizin abad küçələrindən biri professor Xeyrulla Məmmədovun adını daşıyır.

Belə ziyalılar zaman-zaman qəblərdə yaşayacaq, heç vədə unudulmayacaqlar.

***Hüseynbala Əliyev, Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi"***



# Yaşayış evlərinin həyətlərində yanğın avtomobillərinə maneə olmamalıdır

Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə yanğınlar ən çox yaşayış evlərində baş verir. Bu da havaların soyuması, istilik enerjisinə tələbatla əlaqədar mənzillərdə qaz və elektrik cihazlarından daha çox istifadə edilməklə bərabər, qapı-pəncərələrin bağlı olması səbəbi ilə əlaqədardır.

Təbii ki, yanğın baş verdikdə ilk növbədə yanğından mühafizə xidmətinə məlumat verilir və hadisə yerinə yanğın avtomobilləri cəlb olunur. Bu texnikanın yanğının mənbəyinə yaxınlaşması üçün yaşayış məntəqələrində yanğın keçidləri inşa olunmuşdur.

Yanğınların söndürülməsində əsas vasitə yanğınsöndürmə avtomobilləri hesab edilir. Bu texnikanın yanğının mənbəyinə yaxınlaşması üçün yaşayış məntəqələrində yanğın keçidləri inşa olunur. Yanğın keçidi xüsusi texnikanın yanğının söndürülməsi üçün maneəsiz, qısa müddət ərzində yanğın yerinə yaxınlaşmasına imkan verən iki tərəfi açıq olan yoldur. İlk növbədə yanğın keçidinin hər iki tərəfi açıq olmalıdır. Ümumiyyətlə, obyektlərdə yanğın keçidlərinin parametrləri ilə bağlı irəli sürülən tələblər 2.6-1 "Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları"nda əksini tapmışdır. Hər hansı bir texniki normalar haqqında danışmazdan əvvəl, diqqətimizi yanğın keçidləri və ona bitişik olan ərazilərin istifadəsi ilə bağlı olan ümumi tövsiyə və məhdudiyyətlərə yönəldək.

İlk öncə bu faktı qeyd etməliyik ki, binaların həyətlərində çox vaxt avtomobillərin park edilməsinə yerlər təyin olunur. Bu gün nəqliyyat vasitələrinin sayı hədsiz çoxdur, onların sahibləri ilk gördükləri boş yerdə avtomobillərini bir gecəlik və ya bir neçə günlük saxlamaqdan çəkinmir, lakin bu zaman nəzərə almırlar ki, həmin bu yer yanğın keçidinin bir hissəsi ola bilər.

Yanğın keçidləri ilə bağlı texniki tələblər mövcuddur. Bu tələbə əsasən yanğın keçidinin eni birbaşa onun yanında mövcud olan binaların mərtəbəliyindən asılı olmaqla 3,5 metrdən az nəzərdə tutulmamalıdır. Burada sadə prinsip mövcuddur - bina nə qədər yüksək olarsa, keçidin eni bir o qədər enli olmalıdır. Bu amilin çox sadə izahı vardır. Belə ki, 15-ci mərtəbədə baş vermiş yanğının söndürülməsi üçün çox güclü texnikanın mövcudluğu zəruridir. Yanğın avtomobillərinin gücü isə bilavasitə onların qabaritlərindən asılıdır, yanğının söndürülməsində istifadə olunacaq yanğın texnikasının texniki imkanları binanın ölçülərinə uyğun olmalıdır. Yanğın texnikasının yaşayış və ictimai binalara, o cümlədən onlara bitişik tikililərə yanaşması və yanğınsöndürənlərin avtonərdivanlardan və ya avtoqaldırıcılardan hər hansı bir mənzilə və ya otağa keçə bilmək imkanı təmin edilməlidir. Bu qayda yanğın keçidlərinin yalnız eninə deyil, hündürlüyünə də şamil olunur. Yanğın keçidinin hündürlüyü 4,25 metrdən az olmamalıdır.

Bir qayda olaraq, nəqliyyat keçidlərinin kənarından mərtəbəliyi 2-10 olan binalaradək məsafə 5-8 metr, 11 və daha çox mərtəbəli binalaradək isə 8-10 metr qəbul edilməlidir. Bu zonada hasar çəkilməsinə, hava elektrik ötürücü xətlərinin yerləşdirilməsinə və ağacların sıra ilə əkilməsinə yol verilmir.

Binaların giriş olmayan fasadları boyunca yanğınsöndürən maşınların keçməsi üçün yararlı, maşınlardan yer örtüyünə və torpağa düşə bilən yük nəzərə alınmaqla eni 6 m olan zolaqlar nəzərdə tutulmalıdır.

Təəssüf ki, bəzən sakinlər binaların giriş yolunu kənar maşınların daxil olmaması üçün dirək basdırmaqla məhdudlaşdıraraq, həm də yanğınsöndürən avtomobillərin maneəsiz hərəkətinə əngəl törədirlər. Unutmaq olmaz ki, yanğının söndürülməsi üçün hər saniyə qiymətlidir.

***Elnur Babayev,***
***DYNX-nin Yanğına qarşı təbliğat şöbəsinin rəisi***

# Aqrar sahədə görüləcək işlər

## Taxılçılıqda



Martda traktora qoşulan, kombinə edilmiş gübrəsəpən maşınlarla payızla əkinlərə yemləmə gübrəsi-erkən yazda torpaq iqlim şəraitindən asılı olaraq hər hektara fiziki çəkidə 250-300 kq ammonium şorası, yaxud 200 kq-a qədər karbomid verilməsi məsləhətdir. Yüngül mala ilə sahələr cərgələrin köndələninə malalanır, suvarılan rayonlarda isə suvarma davam etdirilir. Payızlıq taxıldan az məhsul götürülməsinin başlıca səbəblərindən biri də suvarmanın vaxtında aparılmasıdır.

## Tütünçülükdə



Martda tütün əkiləcək sahələr ayrılmalı, aqronomiya qaydalarına əsasən gübrələnməli, şitil əkinə hazırlanmalıdır. Hava şəraiti imkan verən kimi rütubəti saxlamaq, alaq otlarını məhv etmək, torpağın yumşaq və təmiz olmasını təmin etmək üçün pərşum (2-ci şum) edilib malalanmalı, şırımlar açılmalı və markerləmə aparılmalıdır. Açıq ləklər hazırlanıb oraya toxum səpilməlidir. Açıq ləklərə toxum martın 1-15 arası səpilməlidir. İsti ştilliklərdə və açıq ləklərdə tütün şitillərinə qulluq edilməli, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri görülməlidir.

## Kartofçuluqda



Dağlıq sahələrdə toxumluq kartof çeşidlənir. Toxumluq kartofun yumrularının çəkisi 30 qramdan artıq olmalıdır. Ona görə toxumluq kartof 30-50 q, 50-80 q və 80 qramdan yuxarı olmaqla çeşidlənir. Dağətəyi sahələrdə arx və şırımlar açılır. Çeşidləndikdən sonra toxumluq kartof işıq düşən və temperaturu 12-15 C olan yerdə təqribən 20-30 gün müddətində cücərdilir. Suvarma aran sahələrdə 7-11 dəfə, dağətəyi sahələrdə 4-8 dəfə aparılmalıdır. Kartofun vegetasiya suvarma norması aran üçün 3500-5500, dağətəyi sahələr üçün 2000-4000 kubm arasında dəyişir. Əkinə 2-3 gün qalmış yumruların temperaturunu torpağın temperaturuna uyğunlaşdırmaq məqsədilə həmin yerin temperaturu 7-80 C-yə qədər azaldılmalıdır. Əkinə kimi cücərtilənlərin uğunluğu 0,2-0,6 sm olmalıdır. Cücərdilmə martın 10-a kimi başa çatmalıdır. Aran və dağətəyi sahələrdə bundan sonra əkinə başlanır.

## Pomidor

Sortların səpiləcək toxumlarının hazırlanması işləri aparılır. Martın ikinci və üçüncü öngünlüyündə şitilliyin üstü polietilen örtüklərlə örtülür. Səpinqabağı becərmədə əsas məqsəd diskiləmə yolu ilə rütubətin buxarlanmasını azaltmaq və mikrobioloji prosesləri sürətləndirmək üçün üst yumşaq torpaq layının yaradılmasından, torpağın cücərmiş alaqlardan və sələf bitkilərin qalıqlarının təmizlənməsindən və torpağın üst layının hamarlanmasından sonra əsas şum altına üzvi və mineral gübrələr verilməsindən ibarətdir.



## Bağçılıqda



Martda dağ və dağətəyi zonalarda xəndək və yeşiklərdəki toxum və qələmlər dəqiq yoxlanılır. Toxumlar cücərəndə yeşiklər zirzəmidən qarın (qar yağan dövrdə) üzərinə çıxarılmalı, xəndəklər açılıb qarla doldurulmalıdır. Aran rayonlarında sahələr hazırlanır, cücərmiş toxumlar əkilir. Vegetativ çoxalan calaqaltı anaclığında pöhrələr qazılıb, tingliyin birinci tarasına köçürülür.

Bağlarda cərgə araları şumlanır, gövdəətrafları bellənir, mulcalanır, çalalar düzəldilir. Şırımlar açılaraq suvarma davam etdirilir. Qışdan çıxmış bağlar təmir olunur, seyrək yerlərə yeni ağac basdırılır.

# Alimin yeni kitabı






Biologiya üzrə fəlsəfə doktoru, "Ali kateqoriyalı müəllim", xalq təbabətinin mahir bilicisi, bir sıra media mükafatçısı, Prezident təqaüdçüsü Hacı Musa Bədəlovun yeni çapdan çıxmış kitabı belə adlanır: "Hər bir dərdin dərmanı var". "Ecoprint" nəşriyyatında çap edilmiş bu kitabda adından da bəlli olduğu kimi xalq təbabətinin müalicə üsullarından, maraqlı deyimlərdən, görkəmli şəxsiyyətlərin həyatından, bitkilərlə müalicənin qısa fraqmentlərdən bəhs olunur, bəzi xəstəlikləri sağaltmaq üçün tövsiyyələr verilir.

Kitabda yer almış "Vanqadan qorxunc proqnozlar" bizi gələcək barədə düşünməyə vadar edirsə, "Səmavi möcüzənin sahibi" kainatda olarkən şahid olduğu sirri açır "Müsəlmanların ən böyük kəşfi", "Stalin Lənkəranda bank çapıb", "Nostradamus", "loğman haqqında", "Teymurləngin Şeyx Cüneyd türbəsində gördüyü möcüzə", "Quran"dan sirlər yəhudi alimi Keyt Muru necə heyrətləndirməsi, Rza Şah Pəlevinin həyatından fraqmentlər oxucu marağına cavab verir.

Hacı Musa Bədəiov yeni kitabında maraqlı bir gediş etmişdir. O, kitabı oxuyarkən oxucu yorulmasın deyə dərc olunmuş yazılara müxtəliflik qatmışdır ki, bu da marağa səbəb olmuş, oxucu zövqünü oxşamağa səbəb olmuşdur.



Planetimizdə 150 il ömür sürmüş Pirasura kəndinin sakini Mahmud Eyvazov dünyanın ən qocaman sakinlərindən idi. 1956-cı ildə Mahmud babanın şərəfinə poçt markası buraxılmışdır.

Mahmud Eyvazovun bioqrafiyası yazıçı Məmmədhüseyn Əliyevin "Dağlar oğlu" romanında öz əksini tapmışdır.

Şəkil Mahmud Eyvazov haqqında sənədli film lentə alınarkən çəkilmişdir.

## "Lerik"də oxuyun:

- Nakam ömrün nəğməsi
- Bir daha Qaraçöhrə haqqında
- Necəsən, Aşıq Əlifağa Əmioğlu?

# Kitab oxu, ömrün uzansın



Həftədə 2 saat kitab oxumaq 2 illik ömrün uzanması deməkdir. "Social Science and Medicine" tərəfindən aparılan araşdırmanın nəticəsində belə bir fikir açıqlanıb. "Social Science and Medicine" 3 min 635 nəfər üzərində apardığı araşdırma zamanı bu qənaətə gəlib. "NOP World Culture Score Index"in məlumatına görə, bu gün dünyada ən çox kitab oxuyan ölkə Hindistandır. Hindistanda adambaşına həftəlik kitab oxuma 10 saat təşkil edir. Ən çox kitab oxuyan ölkələr sırasında növbəti yerdə isə Tailand qərarlaşıb. Tailand əhalisi həftəlik təxminən 9 saatını kitab oxumağa həsr edib. Çində əhali həftənin 8 saatını, Filippin və Misirdə isə 7 saatını kitab oxumağa həsr edir. Siyahıda növbəti yerlərdə Çexiya, İsveç, Fransa, Macarıstan, Səudiyyə Ərəbistan, Polşa, Venesuela, Cənubi Afrika Respublikası, Avstraliya, İndoneziya, Argentina və Türkiyə qərarlaşıb. Türkiyədə isə kitab oxuyanlar həftəlik 6 saatını bunun üçün ayırırlar.

UNESCO-nun rəqəmlərinə görə, türkiyəli vətəndaşların ehtiyac siyahısında kitab 235-ci yerdədir. Uşaqlara kitab hədiyyə edilməsinə görə isə Türkiyə 140-cı yerdə qərarlaşıb.

Türkiyədən bir neçə pillə aşağıda yer alan Yaponiyada isə həfətlik kitab oxuma 4 saatdır.

Qeyd edək ki, sözügedən siyahıda Azərbaycanın adı yer almayıb.

Ziyarətgahlarımız

# Əkkaşə (Akşə) ocağı

Lerik rayonunun ərazisi maddi-mədəniyyət abidələri ilə, ocaq, türbə və pirlərlə zəngin olan məkanlardan biridir. Qədim ziyarətgahlardan biri də Siyov ərazisinin Akuşəpeştə kəndinin yaxınlığında yerləşir. Akuşəpeştə kəndinin qaynaqlardan bəlli olur ki, burada məskunlaşan Akşə ocağında İbn Möhsün Əsəddir. O, dövrünün böyük alimlərindən biri olmuşdur və Məhəmməd Peyğəmbərin (Ə) əshabələrindən sayılır.

XIX əsrin tarixçisi Səid Əli Kazımbəy oğlu "Cavahirnameyi-Lənkəran" əsərində yazır:"Məşhur alim Əkkaşə İbn Möhsün Əsəd bu diyarın müqəddəs şəxsiyyətlərindən biridir. Lənkəranın Çayiçi (Diləru) mahalının camaatı arasında gedən söhbətlərə görə, onun pak məzarı Likar (Ləko) adlı bir yerdədir. O, cənab Həzrət Rəsulun (S.Ə.) 407 əshabələrindən biri olmuşdur"...

Əkkaşə (Akşə) nəsli, şəxsiyyəti, mübarizəsi barədə tədqiqatlar çox azdır, güman ki, tədqiqatçı alimlər, din xadimləri Əkkaşə İbn Möhsün Əsəd haqqında araşdırma aparmaqla tarixin daha bir qaranlıq səhifəsini açacaqlar.

Hazırda bu müqəddəs şəxsiyyətin uyuduğu türbə barədə oxuculara məlumat vermək istəyirəm. Ziyarətgah qədim qəbirstanlıqda yerləşir. Burada həmişə yaşıl ağaclar, iri palıd ağacı bitmişdir. Ocağa su və işıq xətti çəkilmişdir. Ziyarətgaha yol olsa da asfalt örtük çəkilməyib. Asfalt yol çəkilsə ilboyu turistlər, ziyarətçilər türbəyə baş çəkə biləcəklər.

1993-cü ildə Akuşəpeşə kənd sakini Vəlihəd Hacıyev, usta Baloğlan Mirioğlu, Teymur Hacıyev, Həbib Bayramov, Miri Cavadov, Güləli Quliyev, türbənin abadlaşdırılmasında böyük əmək sərf ediblər. Ziyarətgah şərq üslubuna uyğun olaraq milli üslubda inşa edilib. Uzunluğu 8 metr, eni də bir o qədərdir.

Günbəzin hündürlüyü 3,5 metrdir, uzaqdan diqqəti cəlb edir. Akşə ocağına təkcə leriklilər deyil, qonşu Lənkəran və Astara rayonlarının sakinləri də ziyarətə gəlir, müşküllərinin əriyib yox olmasını Ulu Tanrıdan diləyirlər.

***Rövşən İmanov***

# Yeni vəzifələr bizi ruhlandırır

***Respublikamızda başlamış genişmiqyaslı islahatlar qarşımızda yeni vəzifələr qoyur, bizi daha fəal olmağa ruhlandırır***

Lerik Rayon Statistika İdarəsi statistik məlumatların ardıcıllığının və məsuliyyətinin bölüşdürülməsini, fəaliyyətlərin keyfiyyətin idarə olunması sistemi çərçivəsində standartlaşdırılmasını və istehsal mexanizmini vahid istiqamətdə formalaşdırılmasını müəyyənləşdirir.

Rayonda mövcud olan 500-ə yaxın hüquqi şəxslərdən fəaliyyətdə olan 185-dən, 1400-dək yuxarı fiziki şəxslərdən seçməyə düşmüş 121 fiziki şəxsdən hesabatların vaxtında alınması, məntiqi yoxlanılması mütəxəssislərimiz tərəfindən aparılır və onlayn qaydada Dövlət Statistika Komitəsinə verilməsi təmin edildi.

Bütün hüquqi və fiziki şəxslərə bildirilmişdir ki, hesabatları vaxtında təqdim etməyən fiziki və hüquqi şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin 386-cı maddəsi tətbiq ediləcəkdir. Maddəyə əsasən hesabatları verməyən və ya vaxtında verməyən, təhrif olunmuş qaydada verən fiziki və hüquqi şəxslər İXM-nin həmin maddəsi ilə 300-500 manat məbləğində cərimə olunurlar.

Belə halların olmaması üçün statistik vahidlərlə tez-tez islaslar keçirilir, onlara metodiki və təlimedici göstərişlər verilir. Aparılmış tədbirlərin nəticəsidir ki, ötən 2018-ci ilin yekunlarına görə Lerik Rayon Statistika İdarəsi respublika üzrə reytinq cədvəlinə əsasən 9-cu yerdə qərarlaşmışdır.

Biz çalışırıq ki, bundan sonra işimizi daha da təkmilləşdirək və uğurlarımızı davam etdirək.

2019-cu ildə Dövlət Statistika Komitəsi sədrinin əmrinə əsasən Lerik rayon Statistika İdarəsi keyfiyyətin idarə olunması sistemi üzrə beynəlxalq standartlara cavab verən sistemə daxil edilmişdir. Burada əsas məqsəd işlərin və məqsədlərin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Bu sahədə artıq işlər görülməkdədir.

Çalışırıq ki, DSK sədrinin və rayon icra hakimiyyəti başçısının qarşımıza qoyduğu vəzifələri layiqincə yerinə yetirək.

***Nizaməddin MURADOV***
***Lerik Rayon Statistika İdarəsinin rəisi***

# Azərbaycana yaz gəlir



Martın 20-də saat 20:15:30-da Azərbaycana yaz fəsli gəlir. Buna görə də həmin gün Novruz bayramı günü hesab edilir. Həmin gün gecə və gündüz bərabərləşir.

AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikaylov Trend-ə bildirib ki, Azərbaycanda bu il olduğu kimi ilaxır çərşənbə ilə Novruz bayramının eyni günə təsadüf etməsi sonuncu dəfə 2001-ci ildə baş verib. Bu hadisə bir də 2035-ci ildə qeydə alınacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarına əsasən bu il 20, 21, 22, 23 və 24 mart – Novruz bayramı, tarixləri qeyri-iş günü olacaq.

# Dünyadakı 6 min dildən 43 faizi yox olmaq təhlükəsi altındadır




BMT-nin yaydığı məlumata görə, dünyada mövcud 6 min dilin 43 faizi yox olmaq təhlükəsi altındadır. Bunun başlıca səbəblərindən biri həmin dillərdə təhsilin olmamasıdır. Məhv olmaq təhlükəsi ilə üzləşən dillər arasında Şimali Qafqazda qaraçay-balkar dili, Xorasan türkcəsi, Qaqauz, Krım-tatar, Gürcüstanda svan, habelə irland dili, sami, Yeni Zelandiyada yerlilərin danışdığı maori, Latin Amerikasında kurripako dilləri var.

UNESCO-nun baş direktoru Odre Azule dünya ictimaiyyətinə müraciət edib. Müraciətdə diqqətə çatdırılır ki, dünya əhalisinin təxminən 40 faizinin öz ana dilində təhsil almaq imkanı yoxdur. Bilik qazanmaq və digər dilləri öyrənmək prosesinin asanlaşmasında ana dilini yaxşı bilməyin əhəmiyyəti elmi cəhətdən əsaslandırılsa da, təəssüf ki, təhsilin ilk illərində ana dilindən çox az halda istifadə edilir.

# 20-40 yaşlı insanlar qızılcaya qarşı peyvənd olunacaq

Səhiyyə naziri Oqtay Şirəliyev respublikada qızılca xəstəliyinə qarşı immunlaşdırma tədbirlərinin keçirilməsinə dair əmr imzalayıb.

Səhiyyə Nazirliyindən verilən məlumata görə, 2018-ci ildə Avropanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanla həmsərhəd olan Gürcüstan və Rusiyada qızılca xəstəliyinin alovlanması və həmin ölkələrdən Azərbaycana gətirilmə halları qeydə alınıb.

Qabaqlayıcı tədbirlərlə xəstəliyin qarşısını almaq məqsədi ilə imzalanan əmrdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə 2019-cu ilin mart-aprel aylarında qızılca xəstəliyi qeyd olunan Bakı şəhəri və respublikanın digər şəhər və rayonlarında 20-40 yaşlı əhali arasında qızılcaya qarşı təmizləyici immunlaşdırma tədbirlərinin keçirilməsi tapşırılır.

Ambulator-poliklinik müəssisələrdə briqadaların təşkili, peyvənd aparılacaq tibb məntəqələrində müvafiq şəraitin yaradılması əks olunub.

Eyni zamanda immunlaşdırma tədbirlərinin həyata keçirilməsində yerli tibb müəssisələrinə metodiki köməklik göstərilməsi, bölgüyə əsasən qızılca məxmərək vaksininin yerlərə çatdırılmasının təminatı tapşırıqları da verilib.

# Fəxrəddin Şirvan oğlu Muradov



Lerik rayon ictimaiyyətinə itki üz vermişdir. Təcrübəli pedaqoq, fəal ictimaiyyətçi və səmimi ailə başçısı Fəxrəddin Şirvan oğlu Muradov 69 yaşın tamamında dünyasını dəyişmişdir.

Fəxrəddin Muradov 1950-ci ildə Lerik qəsəbəsində (indiki şəhər) qulluqçu ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Lerik rayon pionerlər evində dərnək rəhbəri, sonra isə Bakıda təmir-istismar kontorunda gözətçi işləmiş, erkən yaşlarında zəhmətin dadını duymuş, ali təhsil almaq arzusu onu heç vaxt tərk etməmişdir. Elə bu məqsədlə də 1968-ci ildə ADU-ya (indiki BDU) daxil olmuş 1974-cü ildə ali məktəbi uğurla bitirmişdir. Fizika müəllimi ixtisasına yiyələnən F. Muradov doğma rayona qayıtmış, Lerik qəsəbə 1 saylı orta məktəbdə müəllim işləməyə başlamışdır. Müəllim işlədiyi 14 il əraində yetişmələrindən bir çoxu ali və orta ixtisas təhsili almış, bir çox iş yerlərində özlərini doğrultmuşlar.

Həm pedoqoji sahədə çalışan iş yoldaşları, həm də dərs dediyi məzunlar həmişə F. Muradovun hörmət və ehtiramını saxlamış, müəllimə bir ziyalı, valideyin, yoldaş kimi yanaşmışlar.

Fəxrəddin Muradovun vaxtsız ölümü dostlarını, yaxınlarını keçmiş şagirdlərini sarsıtsa da, onlar bununla təsəlli tapırlar ki, layiqli övladları, ardıcılları, dostları F. Muradovun işıqlı yolunu davam etdirirlər. O cismən aramızda olmasa da, ürəklərdə yaşayacaq.

Allah rəhmət eləsin, məzarı nurla dolsun!

***Yoldaşlarından bir qrupu.***



***Muradəli Hüseynov***

## Ana

Dinib danışanda kainat susar,
Çaylar da axmayıb səssiz dayanar.
Hamının diqqəti Sizə tuşlanar,
Canlı kainatın ruhusan ana!

Tanrı dərgahına qalxıb əllərin,
Sənsən əlifbası bütün ellərin.
Güzgü tək təmizdir saf əməllərin,
Əl çatmaz zirvəsən dünyada, ana.

Şən laylay səsindən qəm-kədər qaçar,
Həzin laylayınla körpə dil açar.
Laylanla kainat nur, işıq saçar,
Yoxdur bərabərin dünyada, ana.

Körpə dil açanda gülümsər üzün,
Körpəyə bağlıdır gecən-gündüzün.
Övlada şəfadır hər şirin sözün,
Ən böyük təbibsən dünyada özün.

Olduğun məkanda qış bahar olar.
Fəsillər dəyişməz, daim yaz olar.
Bu sonsuz kainat sevinclə dolar,
O, sevinc bəxş edən laylana qurban.

Günəş də nurunu nəğməndən alır.
Gündüzlər şüasın ellərə salır.
Sənsiz xoş kainat zülmətə dalır,
Şirin laylayına qurbanam, ana.

Ana, bir laylay de, daim sülh olsun.
Dünyada insanlar mehriban olsun.
Yurdumuz işğaldan tez azad olsun,
Həzin laylayına qurbanam, ana.

# Azərbaycançılıq və Novruz adətləri

Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamları yada salarlar.

Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamların adını çəkib "filankəslərin adına qazan asdım" deyib qazana bişmək üçün ət, yaxud düyü və s. tökərlər.

Axır çərşənbə günü ertədən lampa yandırarlar.

Novruzda qəmgin oturmazlar.

Novruzda Novruz süfrəsi açarlar.

Novruzda noğul, şəkər düzəldib süfrəyə qoyarlar.

Novruzda qoz, fındıq alar, xonçaya və ya süfrəyə qoz ləpəsi ilə armud qaxı qoyarlar.

Novruzda səməni göyərtmək düşməyən evə səməni aparar-lar.

Novruzda damlarda çalğı düzəldərlər.

Novruzda qız seçməyə çıxarlar.

Novruzda qıza mətləb açarlar.

Novruzda təzə paltar geyinərlər.

Novruzda küsülü qalmazlar.

Novruzda qohum-qardaş yığışıb qonaq gedərlər.

Novruzda nişanlı qıza bayram payı apararlar.

Novruzda söyüş söyməzlər.

Novruz axşamı qarğış eləməzlər.

Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamları yada salarlar.

Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamların adını çəkib "filankəslərin adına qazan asdım" deyib qazana bişmək üçün ət, yaxud düyü və s. tökərlər.

Axır çərşənbə günü ertədən lampa yandırarlar.

Novruzda qəmgin oturmazlar.

Novruzda Novruz süfrəsi açarlar.

Novruzda noğul, şəkər düzəldib süfrəyə qoyarlar.

Novruzda qoz, fındıq alar, xonçaya və ya süfrəyə qoz ləpəsi ilə armud qaxı qoyarlar.

Novruzda səməni göyərtmək düşməyən evə səməni aparar-lar.

Novruzda damlarda çalğı düzəldərlər.

Novruzda qız seçməyə çıxarlar.

Novruzda qıza mətləb açarlar.

Novruzda təzə paltar geyinərlər.

Novruzda küsülü qalmazlar.

Novruzda qohum-qardaş yığışıb qonaq gedərlər.

Novruzda nişanlı qıza bayram payı apararlar.

Novruzda söyüş söyməzlər.

Novruz axşamı qarğış eləməzlər.

Novruz günü ata-ananın qəbrini ziyarət edərlər.

Novruz axşamı evdə ailə üzvlərinin sayına görə şam yandırarlar.

Novruzda qeybət qırmazlar.

# NOVRUZ BAYRAMI ŞƏNLİKLƏRİNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar, o cümlədən Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

Novruz bayramı İlə əlaqədar keçirİlən şənlİklərdə

- Əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.

**UNUTMAYIN Kİ...**

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərini və ya həyətyanı sahələrə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.

**NOVRUZ BAYRAMI ŞƏNLİKLƏRİNDƏ UŞAQLARI NƏZARƏTSİZ QOYMAYIN!**

- Bahar bayramı şənliklərində azyaşlıların, uşaqların odla dəcəllik etməsinə yol verilməməlidir.
- Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

**ŞAM YANDIRARKƏN**

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

***Lənkəran Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

## Allah rəhmət eləsin!

Lerik RİH başçısı Rövşən Bağırov və RİH kollektivi Nizam Muradova, qardaşı

**Fəxrəddin Muradovun**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.

---

Şahrıza Əliyev, İdris Şükürlü, İdris Şıxəliyev, Mübariz Ağayev, Zöhrab Salayev, Hüseyinbala Əliyev, Mahmud Zaidov, Elman Abbasov, Balaşirin Nəsirov, Əlhüseyin Əliyev, Malik Mirzəyev, İlham Dadıyev, Nizam Muradova qardaşı

**Fəxrəddin Muradovun**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

---

Lerik Rayon Statistika İdarəsinin kollektivi idarənin rəisi Nizam Muradova, qardaşı

**Fəxrəddin Muradovun**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 500
Sifariş: 141

